**“Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü”nün təyin olunması və ödənilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 dekabr tarixli 493 nömrəli Fərmanının 3.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədlə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təyin olunması və ödənilməsi Qaydaları" təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar 2007-ci il yanvarın 1-dən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 29 yanvar 2007-ci il
18

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2007-ci il 29 yanvar tarixli 18 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**“Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü”nün təyin olunması və ödənilməsi**

**QAYDALARI**

1. Bu Qaydalar "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 dekabr tarixli 493 nömrəli Fərmanına əsasən hazırlanmışdır və şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təyin olunması və ödənilməsi mexanizmini müəyyən edir.

2. "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü" şəhidin aşağıdakı ailə üzvlərinə təyin edilir:

2.1. arvadına (ərinə);

2.2. valideynlərinə;

2.3. 18 yaşına çatmamış və ya 18 yaşına çatanadək *əlilliyi* müəyyən olunmuş 18 yaşından yuxarı *əlilliyi olan* uşaqlarına;[1]

2.4. uşaq evlərində tərbiyə olunan qardaş və bacılarına;

2.5. qanunla onları saxlayan şəxs olmadıqda baba və nənələrinə.

3. Şəhidin 2.3-cü və 2.4-cü yarımbəndlərdə göstərilən ailə üzvləri tədris müəssisələrində əyani təhsil aldıqda, həmin təqaüd təhsili bitirənədək, lakin ən çoxu 23 yaşına çatanadək ödənilir.

4. Şəhidin qəyyumluğa (himayəçiliyə) verilmiş uşaqlarına "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü" təyin edilərkən qəyyum (himayəçi) ailə tərkibində nəzərə alınmır.

5. "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü" müraciət edən şəxsin şəhidlə qohumluğunu təsdiq edən sənəd, şəhid ailələrinə verilən vəsiqə, təqaüd almaq hüququ olan digər ailə üzvləri barədə məlumat və ərizə əsasında təyin edilir.

6. "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü" hər bir şəhidə görə təyin edilir və ailə üzvlərinin sayına bərabər bölünməklə ödənilir.

7. "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü" Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan şəhid ailəsi üzvlərinə *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu*, Azərbaycan Respublikasında yaşayan şəhid ailəsi üzvlərinə isə yaşayış yeri üzrə *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun yerli qurumları və ya “DOST” mərkəzləri* tərəfindən təyin edilir və *yalnız nağdsız qaydada* ödənilir.[2]

8. Müraciət müddətindən asılı olmayaraq, "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü" onu almaq hüququ yarandığı gündən təyin edilir.

9. "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü" dövlət büdcəsinin vəsaiti hesabına ödənilir.

10. Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan şəhid ailəsi üzvlərinə təqaüd onların arzularına əsasən Azərbaycan Respublikasının banklarında açılmış şəxsi hesablarına və ya öz vəsaitləri hesabına yaşadıqları ölkələrə köçürülür.

İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 22 fevral 2008-ci il tarixli 50 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 2, maddə 130**)
2. 28 noyabr 2016-cı il tarixli **488** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Xalq” qəzeti, 29 noyabr 2016-cı il, 264, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 11, maddə 1976**)

3. 26 may 2017-ci il tarixli **232** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 31 may 2017-ci il, 115, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5, maddə 1003)**
4. 7 mart 2019-cu il tarixli **81** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 14 mart 2019-cu il, 59, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 515**)
5. 9 iyul 2019-cu il tarixli **297** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 13 iyul 2019-cu il, 150, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 7, maddə 1320**)
6. 5 mart 2021-ci il tarixli **53** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 11 mart 2021-ci il, 54 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 3, maddə 272)**

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 22 fevral 2008-ci il tarixli 50 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 2, maddə 130**) ilə 2.3-cü bəndində «**və ya həmin yaşa çatanadək əlil olmuş 18 yaşından yuxarı uşaqlarına**» sözləri « **və ya 18 yaşına çatanadək sağlamlıq imkanlarının məhdudluğu müəyyən olunmuş 18 yaşından yuxarı əlil uşaqlarına**» sözləri ilə əvəz edilmişdir.

7 mart 2019-cu il tarixli **81** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 14 mart 2019-cu il, 59, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 515**) ilə "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təyin olunması və ödənilməsi Qaydaları"nın 2.3-cü bəndində "**sağlamlıq imkanlarının məhdudluğu**" sözləri "**əlilliyi**" sözləri ilə və "**əlil**" sözü **"əlilliyi olan"** sözləri ilə əvəz edilmişdir.

[2] 28 noyabr 2016-cı il tarixli **488** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 29 noyabr 2016-cı il, 264, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 11, maddə 1976)** ilə 7-ci hissəyə "**Nazirliyi**" sözündən sonra "**yanında Dövlət Sosial Müdafiə Fondu**" sözləri əlavə edilmişdir və həmin hissədə "**rayon (şəhər) əhalinin sosial müdafiəsi mərkəzləri**" sözləri "**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun şəhər, rayon şöbələri**" sözləri ilə əvəz edilmişdir.

26 may 2017-ci il tarixli **232** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 31 may 2017-ci il, 115, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 5, maddə 1003)** ilə "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təyin olunması və ödənilməsi Qaydaları"nın 7-ci hissəsinə "**təyin edilir və**" sözlərindən sonra "**yalnız nağdsız qaydada**" sözləri əlavə edilmişdir.

9 iyul 2019-cu il tarixli **297** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 13 iyul 2019-cu il, 150, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 7, maddə 1320**) ilə "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təyin olunması və ödənilməsi Qaydaları"nın 7-ci hissəsinə "**şəhər, rayon şöbələri"** sözlərindən sonra "**və ya "DOST" mərkəzləri**" sözləri əlavə edilmişdir.

5 mart 2021-ci il tarixli **53** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 11 mart 2021-ci il, 54 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 3, maddə 272**) ilə "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təyin olunması və ödənilməsi Qaydaları"nın 7-ci hissəsində (hər iki halda) "**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında**" sözləri "**Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində**" sözləri ilə və "**şəhər, rayon şöbələri**" sözləri "**yerli qurumları**" sözləri ilə əvəz edilmişdir.